# Sənətdə yaşayan qan yaddaşı

***Tarix bizi Qanlı Yanvar hadisələrindən nə qədər uzaqlaşdırsa da bu faciə xalqımızın yaddaşından heç zaman silinməyəcək. Xalqların azadlıq mübarizəsi, müqəddəs amal uğrunda verilən qurbanlar ədəbi nümunələrdə, səhnə və ekran əsərlərində, musiqidə yaşadılır. 1990-cı ilin Qara Yanvarı da Azərbaycan xalqının yaddaşına qanla yazılan səhifələrdəndir. 20 Yanvar təkcə Azərbaycan xalqının deyil, bəşər tarixinin qanlı səhifələrindən biri, insanlığa qarşı cinayətdir.***




Sovet qoşunlarının Bakıda dinc əhaliyə qarşı həyata keçirdiyi qırğından 32 il ötür. Milli birliyin və azadlıq mübarizəsinin simvoluna çevrilən tariximizin qəhrəmanlıq səhifəsi haqqında yüzlərlə bədii nümunə yaradılıb.

Məlumdur ki, tarixi hadisələr hər zaman sənət adamlarının diqqətini cəlb edib. Bu baxımdan təsviri sənətin ayrı-ayrı janrlarında 20 Yanvar mövzusunda dəyərli əsərlər yaradılıb. Dövlət Rəsm Qalereyasının fondunda bu hadisələri əks etdirən boyakarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi sənət nümunələrindən ibarət xeyli əsər saxlanılır. Onların sırasında R.Heydərzadənin “Şəhid”, N.Rəhmanovun “20 Yanvar”, R.Məmmədovun “O qan yerdə qalmaz”, O.Quliyevin “Qırğın” və digər əsərləri qeyd etmək olar. 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə ucaldılmış abidə kompleksi rəssam və heykəltəraşlarımızın bu mövzuya baxışlarını, yanaşmalarını bir daha göstərir.

Bu mövzuda yaradılan rəsm əsərlərində təkcə faciə deyil, həm də xalqın qəhrəmanlıq ruhunun nümayişi əsas motivləri təşkil edir. Ulu öndər Heydər Əliyevin 1995-ci il yanvarın 18-də R.Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində keçirilən “Qanlı Yanvar” rəssamlıq sərgisindəki çıxışından sonra bədii əsərlərdə şəhidlərin ölməzliyini və müqəddəsliyini təcəssüm etdirən obrazlar yaradılmağa başlandı. Rəssamlıq sahəsində bu şərəfli tariximiz, bəlkə də, daha canlı, ifadəli və obrazlı təsvir edilməyə başladı.

Xalq rəssamı Fərhad Xəlilov belə əsərlərin vacibliyinə toxunaraq deyib: “Xalq yaxşı günləri yaşadıqca, faciələrinin də unudulmaması naminə onları gələcək nəsillərə çatdırmalıdır. Tarixin belə qanlı səhifələrinin yaddan çıxmaması üçün ən yaxşı vasitələrdən biri də rəsm əsərləridir. Belə əsərlər nə qədər çox olarsa, həmin tarixi dünya xalqlarının diqqətinə çatdırmaq da bir o qədər mümkünləşər və asanlaşar”.

Xalq rəssamı Mikayıl Abdullayevin rənglərin harmoniyasından yoğrulan “Nakamların dəfni” əsərinə tamaşa etdikcə, həqiqətən, öz xalqının qəhrəmanlığından qürur duyursan. Bu əsərdə 20 Yanvar faciəsini yaşayan bir xalqın müqəddəs ruhu əks olunur. Eyni zamanda, bu faciəni törədən cəlladlara qarşı rəssamın hədsiz nifrəti aydın duyulur.

Görkəmli fırça ustalarından Rasim Babayevin “Təcavüz”, Kirman Abdinin plakat janrında işlədiyi bir sıra silsilə əsərlərində, rəngkar Hacırza Fərzəliyevin “Ağlı-qaralı dünya”, Fikrət İbrahimovun “Gələcək naminə”, Həmzə Abdullayevin “Çərxi-fələk”, İsmayıl İsmayılovun “Haqq tərəzisi”, Qafar Seyfullayevin “Öncə Vətəndir...”, Asim Səmədovun “Ruhlar” və s. tablolarında qanlı şənbə gecəsinin ağrı-acılı yaşantıları öz bədii ifadəsini tapıb.

Qrafika ustaları Arif Hüseynovun “Qara tağlı natürmort”, Fəxrəddin Əliyevin “Qara Yanvar” və Arif Ələsgərovun “20 Yanvar” əsərləri də xalqımızın imperiya təcavüzünə məruz qaldığı gecəyə həsr olunmuş bədii sənət nümunələri olmaqla yanaşı, bizi düşmənə qarşı daim ayıq-sayıq olmağa səsləyir. Xalq rəssamı Ağəli İbrahimovun fikrincə, 20 Yanvar faciəsi təsviri sənətin əbədi mövzularından biridir: “Bu tarix yaddaşlardan silinməyəcək və indiyədək olduğu kimi, bundan sonra da 20 Yanvar Azərbaycan rəssamlarının vətəndaşlıq mövqeyindən daim müraciət etdiyi mövzu kimi qalacaq”.

20 Yanvar hadisələri ilə bağlı xalçaçı rəssam Fəxrəddin Əli “Şəhidlər” adlı iri həcmli xalçanı araya-ərsəyə gətirib. Əsərin ortasında 20 Yanvar faciəsini ruhən yaşayan ana obrazı, onun ətrafında isə şəhid ruhları öz ifadəsini tapıb. 20 Yanvar motivi Bakıdakı qırğının təsviri ilə yadda qalır. Bütün xalça boyunca qərənfil obrazı aparıcıdır. 1991-ci ilin 20 Yanvarında bu xalça-əsər ziyarətə gələn on minlərlə soydaşımızın kədərini özündə yaşadan rəmz kimi Şəhidlər xiyabanının girişindən asılmışdır. Bir neçə gün ərzində xalça orada qaldı, sonra Milli Azərbaycan Tarix Muzeyinə təhvil verildi. Hazırda həmin əsər orada saxlanılır.

Bu mövzuya həsr olunmuş sənət əsərlərində, heykəltəraşlıq və memarlıq nümunələrində həm tarix yaşadılır, həm də xalqımızın qəhrəmanlığı təbliğ olunur.

Xalqımızın başına gətirilən faciələrin dünya ictimaiyyətinə çatdırılmasında mədəni təbliğatın böyük əhəmiyyəti var. Bu baxımdan musiqi əsərləri önəmli rola malikdir. Azərbaycan Bəstəkarlar İttifaqından öyrəndik ki, son illər ərzində qanlı Yanvara və şəhidlərə həsr olunmuş 20-dən artıq əsər quruma təqdim edilib. Vaxtilə görkəmli bəstəkarlar Cövdət Hacıyev “Şəhidlər” simfoniyası (1990), Hacı Xanməmmədovun solist və xalq çalğı alətləri orkestri üçün “Əlimdə sazım ağlaram” poeması (1991), Azər Rzayev “Bakı-90” simfoniyası, Vasif Adıgözəlov “Qəm karvanı” oratoriyası və digər əsərlər faciənin miqyasını notların dili ilə göstərib. Qanlı tarixdən keçən 32 il ərzində bu nümunələrin sırasına yeni-yeni əsərlər daxil olub, faciəvi fakta müxtəlif yanaşmalar nümayiş etdirilib.

Bəstələnən musiqilər tanınmış musiqi kollektivlərinin, orkestrlərin ifasında Hüzn Günü ərəfəsində xarici ölkələrin müxtəlif konsert salonlarında da səsləndirilərək dünya ictimaiyyətinin diqqətini bir daha faciəyə yönəltməyə xidmət edir. Son illər 20 Yanvar faciəsi və şəhidlərə həsr olunan musiqi əsərlərinin arasında Arif Mirzəyevin “Yanvar passionları” matəm messası, Nazim Quliyevin “Şəhidlər” operası, Oqtay Rəcəbovun “Çingiz” oratoriyası, Zabitə Məmmədovanın “Elegiya” solist, xor və orkestr üçün əsərini qeyd edə bilərik.

Tariximizin 20 Yanvar səhifəsi Azərbaycan rejissorlarının daima müraciət etdiyi mövzulardandır. Rejissor Vahid Mustafayevin “Qanlı Yanvar” bədii filmi bu mövzuda çəkilmiş ən qiymətli əsərlərdəndir. Bu ekran əsərini beynəlmiləl kollektiv ərsəyə gətirib. Filmdə Azərbaycan, ABŞ, İran, Rusiya və Türkiyədən tanınmış aktyorlar rol alıblar.

"Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən “Salnamə” sənədli filmlər studiyasında da faciə ilə bağlı və ümumilikdə Azərbaycan tarixinin qanlı səhifələrinə həsr edilən ekran əsərləri istehsal olunub.

Son illər studiyada vətənpərvərlik mövzusunda filmlər ərsəyə gətirilib. Bu filmlərdə 1988-ci ildən bəri ölkəmizə qarşı həyata keçirilən düşmənçilik siyasəti, xalqımızın başına gətirilən faciələr fərqli rejissor yozumlarında xronoloji ardıcıllıqla kinolentin yaddaşına köçürülüb. “Azadlığa gedən yollar” sənədli filmində Azərbaycan tarixinə qara hərflərlə yazılmış 20 Yanvar faciəsi əsas süjet xəttini təşkil edir. Bu sıraya “Xatirələrdə yaşanan ömür”, “Vətən qeyrəti”, “Mən evə qayıdıram” filmlərini də əlavə etmək olar. Hərbi vətənpərvərlik mövzusunda ekranlaşdırılan “Mən evə qayıdıram” bədii filmi 1990-cı illərin real hadisələri əsasında çəkilib. Film Azərbaycanın hərbi təyyarəçilərinin qəhrəmanlıq hekayətindən bəhs edir.

Bu illərdə işıq üzü görən bir çox bədii və araşdırma kitablarında da 20 Yanvar faciəsinin mahiyyətindən bəhs olunub. Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasından verilən məlumata görə, Azərbaycan və rus dillərində qanlı Yanvar hadisələri ilə bağlı onlarca nəşr kitabxanaya təqdim edilib. Yazıçı Vahid Məhərrəmovun ”Qanlı gecə, qanlı tarix: 20 Yanvar faciəsi haqqında”, Niftalı Şıxların “Dünyamızın 20 Yanvar faciəsi”, Məzahir Süleymanzadənin “20 Yanvar: güllələnmiş qəzet”, Mədinə Qasımovanın “Ağla, qərənfil, ağla” və “İ mertvıe pobejdayut” (“Ölülər də qalib gəlir”), Şəmkir Təhməzlinin “1990-cı il Qanlı Yanvar izləri”, İsmixan Yusubovun “Erməni dosyesi” və faciədən bəhs edən onlarca əsər kitabxananın fondunda yer alıb.

Günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, əyilməzliyini nümayiş etdirdi. Şübhəsiz ki, bu hadisəni özündə əks etdirən yeni-yeni sənət nümunələri gələcəkdə də yaranacaq.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***